09 - 16 yanvar 2026-cı il

CÜMHURİYYƏT

# Ermənistanın gələcəyi Zəngəzur dəhlizinə bağlıdır

## *Natiq Miri:* *"Bundan sonra İrəvanın yolu qalmayacaq"*



**"Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində deyib. Dövlətimizin başçısı deyib: "Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq işlərinə paralel olaraq Naxçıvan Muxtar Respublikasında da istər yaşıl enerji olsun, istər kənd təsərrüfatı, istər suvarma, - indi orada böyük suvarma layihələri icra ediləcək, - istər turizm, bu bölgəni biz birləşdirəcəyik. Mən bunu bir daha demək istəyirəm, biz bunu onsuz da edəcəkdik, amma yaxşı ki, bunu sülh yolu ilə edirik".**



Prezident vurğulayıb ki, Ermənistan da bundan ancaq fayda görər: "Çünki Ermənistan indiki dalan vəziyyətindən çıxa bilər və çıxacaq. Azərbaycanla Ermənistan arasında yollar açılacaq. Türkiyə ilə Ermənistan arasında yollar açılacaq. Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək. Yəni bu, Ermənistan üçün də faydalıdır. Burada uduzan tərəflər olmamalıdır. Hər halda iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən uduzan tərəf olmayacaq. Əgər kimsə özünü siyasi cəhətdən uduzmuş hesab edirsə, bu, necə deyərlər, onun problemidir. Amma əgər hər kəs bu məsələyə praqmatizm nöqteyi-nəzərindən baxsa, burada özü üçün xeyirli bir iş görə bilər".

Qeyd edək ki, Ermənistan uzun illərdir geosiyasi təcrid və nəqliyyat blokadası altındadır. Ölkənin əsas ticarət və nəqliyyat yolları ya bağlıdır, ya da məhdud imkanlarla fəaliyyət göstərir. Bu da faktiki olaraq Ermənistan iqtisadiyyatına mənfi təsir göstərərək, ölkəni dalana salır. Lakin Naxçıvan vasitəsilə İranın, Azərbaycan ərazisindən isə Rusiyanın dəmir yollarına çıxış əldə etmək imkanı rəsmi İrəvan üçün yeni perspektivlər açır. Bu bağlantılar Ermənistanı düşdüyü dalan vəziyyətindən çıxara və iqtisadi əlaqələrinin genişlənməsinə şərait yarada bilər.

Bu baxımdan, Zəngəzur dəhlizi xüsusi əhəmiyyət daşıyır. Bu dəhlizin açılması Ermənistanın regional layihələrə inteqrasiyasını təmin edə və ticarət dövriyyəsinin artmasına da səbəb ola bilər. Yəni Ermənistan bu şansı dəyərləndirə bilsə, həm iqtisadi, həm də siyasi baxımdan qazanclı çıxacaq. Bu isə regionda davamlı sülh və əməkdaşlıq üçün yeni imkanlar yaradar.

Politoloq Natiq Miri "Cümhuriyyət"-ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev növbəti dəfə gerçəkləri Ermənistan hakimiyyətinin diqqətinə çatdırdı: "Əvvəldən də deyildiyi kimi, Ermənistan işğalın başa çatmasından qazanclı çıxar. Zəngəzur dəhlizinin açılması da bu qazancı artıracaq. Zəngəzur dəhlizi açılandan sonra Ermənistan artıq Gürcüstan vasitəsilə dolayı yolla deyil, birbaşa Rusiyaya dəmir yolu xətti əldə edəcək. Yəni həm işlək avtomobil, həm də dəmir yolu xəttinə sahib olacaq. Kommunikasiya xəttinin əldə edilməsi İrəvanın geoiqtisadi maraqlarına uyğundur. Çünki Ermənistanın əsas bazarı üzvü olduğu Avrasiya İttifaqı dövlətləridir. Üstəlik, bu ticarətin 60 faizə qədəri Rusiya ilə aparılır. Rusiya ilə dəmir yolunun açılması Ermənistan üçün bazarın inkişafı və məhsulların çatdırılmasının tezləşdirilməsi imkanı yaradır".

Onun sözlərinə görə, Zəngəzur dəhlizi sayəsində Ermənistan özü də müəyyən mənada qovşağa çevrilir: "Çünki Sovet dönəmində mövcud olan SSRİ-İran dəmir yolu Ermənistandan keçməklə Naxçıvana gedirdi. Bu gün həmin dəmir yolunun bərpa edilməsi mümkündür. Bu isə o deməkdir ki, Ermənistan sadəcə Rusiyaya və MDB ölkələrinə dəmir yolu xətti qazanmır. Həmçinin, İrana, Hindistana və Cənub-Şərqi Asiyaya qədər yeni kommunikasiya sistemlərinə çıxış əldə edir".

Natiq Miri deyib ki, artıq Ermənistan üçün başqa yol qalmayıb: "Adıçəkilən ölkənin gələcəyi Zəngəzur dəhlizinə bağlıdır. Azərbaycan Prezidenti İlham Əliyev də bu həqiqətləri söyləyir. Bu layihə faktiki olaraq Ermənistanın ərazi bütövlüyü, suverenliyi və iqtisadiyyatını dəstəkləyən layihədir. Ona görə də İrəvan hakimiyyəti İlham Əliyevin dedikləri həqiqətdən dərs çıxarmalıdır. Nəzərə almalıdırlar ki, Zəngəzur dəhlizi Ermənistanın gələcək inkişaf perspektivinə ciddi yol açır. Bundan sonra Ermənistanın hansısa bəhanələr gündəmə gətirməsi üçün yolu da qalmayacaq".

**Elmir Mustafa**